RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:http://dx.doi.org/10.12975/rastmd.2015.03.02.00043



# DİNİ MUSİQİ VƏ BƏSTƏKAR YARADICILIĞININ QARŞILIQLI TƏSİRİNİN TƏDQİQİ MƏSƏLƏLƏRİ

**Rövşanə Kərimova[1]**

## ÖZET

Musiqişünaslıqda "Dini musiqi və bəstəkar yaradıcılığı" məsələsinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Dini musiqinin və bəstəkar yaradıcılığının qarşılıqlı təsiri nəticəsində dünya musiqisində bir sıra əbədi mövzular meydana gəlmiş və janrlar formalaşmışdır. Bu baxımdan, İlahi məhəbbətin, insanlığın, saf mənəviyyatın, ümumbəşəri kədər və hüzn hisslərinin ifadəsi kimi rekviyem, passion və s. kimi dini musiqi janrlarından istifadə olunmasını qeyd etməliyik. Azərbaycan bəstəkarlarının yaradıcılığında həm Qərbdə yaranmış, əsasən Xristianlıqla bağlı dua mətnlərindən (məsələn, "Ave maria") və janrlardan (rekviyem, passion, misteriya və s.) istifadə olunması, həmçinin, Şərqdə yayılmış qədim dinlərin – Zərdüştiliklə bağlı mövzuların, təriqətlərin (dərvişlik, sufilik, mövlanəlik), İslam dininə xas olan dini oxuma və janrların (dua mətnləri, mərsiyə, qəsidə, şəbeh və s.) istifadə olunması nəticəsində bəstəkarların özünəməxsus musiqi üslubu formalaşmışdır. Dini musiqinin bəstəkar yaradıcılığına sirayət etməsi, demək olar ki, bütün sahələrdə - musiqili-teatr, vokal-instrumental, xor, simfonik və kamera instrumental musiqi sahələrində özünü müxtəllif cəhətlərdən göstərir.

**Anahtar Kelimeler: Bəstəkar yaradıcılığı, Dini musiqi, Şəbeh, Rekviyem, Passion.**

# THE PROBLEMS OF STUDYING OF INTERFERENCE OF RELIGIOUS MUSIC AND THE COMPOSER'S CREATIVITY

**Rovshana Kerimova**

## ABSTRACT

The study of the topic "religious music and the composer's creativity" has a great importance in musicology. As a result of the influence of religion on composer's creativity, several sublime themes and different genres of sacred music in the world music emerged. In this aspect, it should be noted that the use of religious music genres - Requiem, Passion and so on, were formed as an expression of the love to God, humanity, pure morals, human feelings of sadness and grief. The use of prayers and religious music genres that are widespread in the West and Christian world such as "Ave Maria", Requiem, passion, mystery; genres such as mersiye, kasida and shabeh in the East and Islamic world; symbols and chants of ancient religions associated with Zoroastrianism; religious sects and trends such as Sufism, dervishes have established a basis for the unique stylistic features in the

[1]Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı

works of Azerbaijani composers. Influence of religious music in the composer's creativity manifested in almost all genres of musical art as musical stage works, vocal-instrumental, choral, symphonic and instrumental chamber music.
**Keywords: Composer's creativity, Religious music, Shabeh, requiem, Passion.**

# ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ВЗАИМОВЛИЯНИЯ РЕЛИГИОЗНОЙ МУЗЫКИ И КОМПОЗИТОРСКОГО ТВОРЧЕСТВА

**Керимова Ровшана**

## РЕЗЮМЕ

Изучение проблемы "религиозная музыка и композиторское творчество" имеет большое значение в музыковедении. В результате влияния религии на композиторское творчество в мировой музыке появились возвышенные темы и различные жанры духовной музыки. В этом отношении, следует отметить, использование религиозных музыкальных жанров - реквием, пассионы и так далее, как выражение любви к Богу, человечеству, чистых нравов, человеческих чувств печали и горя. В результате использования текстов молитв и жанров религиозной музыки широко распространенные как на Западе в Христианском мире (например, "Аве Мария", реквием, страсти, мистерия и др.), так и на Востоке, в Исламском мире (мерсийе, касиде, шабех и др.), также символов и песнопений древних религий, связанные с Зороастризмом, с религиозными сектами и течениями (например, суфизм, дервишество и т.д.), сформировались своеобразные стилевые черты в творчестве азербайджанских композиторов.Влияние религиозной музыки на композиторское творчество, проявляется почти во всех жанрах музыкального искусства – в музыкально-сценических произведениях, в вокально-инструментальной, хоровой, симфонической и камерно-инструментальной музыке.
**Ключевые слова: композиторское творчество, религиозная музыка, шабех,реквием, пассион.**

## GİRİŞ

Dünya musiqi mədəniyyətinin formalaşmasına təsir göstərən əsas qaynaqlardan biri dini-ruhani musiqidir. Bu proses Şərq və Qərb ölkələrində müxtəlif istiqamətdə getsə də cəmiyyətin həyatında, həmçinin, mədəniyyətin inkişafında mühüm əhəmiyyətə malikdir. Bütün dövrlərdə, bütün cəmiyyətlərdə dinin xüsusi təbəqə kimi formalaşdığını və özünəməxsus qayda-qanunlarının, mənəvi-əxlaqi tələblərinin, mədəniyyətə təsirinin, təzahür formalarının inkişaf etdiyini və möhkəmləndiyini qeyd etməliyik ki, bu proses qədim dövrlərdən müasir dövrümüzə kimi müşahidə olunur. Dünya ölkələri sırasında mədəni və iqtisadi baxımdan inkişaf etmiş ölkələrdən biri olan Azərbaycanda əsas dinlərin mövcudluğu, cəmiyyətdə tolerantlığın hökm sürməsi musiqi mədəniyyətində də dini mövzunun bir istiqamət kimi formalaşmasında əhəmiyyətli faktor kimi qeyd olunmalıdır. Azərbaycan mədəniyyətinin inkişaf tarixinin müxtəlif dövrlərində dini etiqadların yaranması və yayılması xüsusi mərhələlər kimi nəzərdən keçirilir ki, bunların həm ayrılıqda, həm də vəhdət halında öyrənilməsi vacibdir.

Dini musiqi – xalq mədəniyyətində ayrıca təbəqə kimi formalaşmaqla yanaşı, dini inanc və etiqadların izlərinə və təsirinə xalqın şifahi ənənəli yaradıcılıq irsində - xalq mahnı və rəqslərində, aşıq sənətində, muğam sənətində rast gəlinir. Özünəməxsus mövzu, janr və

obrazlar sisteminə malik olan dini musiqinin bəstəkar yaradıcılığına daxil olması ilə getdikcə mahiyyətini və əhatə dairəsini genişləndirməsi, ümumbəşəri hisslərin ifadəsinə çevrilməsini müşahidə edirik. Bütün bunlar dini musiqinin bəstəkar yaradıcılığına təsiri məsələlərinin tədqiqini aktuallaşdırır. Müasir dövrdə dini-ruhani musiqi ənənələrinin dirçəldilməsi və bu sahədə yüksəliş nəzərə çarpır. Dini mövzular dairəsi bəstəkar yaradıcılığında fərdi və özünəməxsus cəhətlərlə zənginləşir. Bununla əlaqədar olaraq, dini mövzuda yazılmış bəstəkar əsərlərində yeni janr xüsusiyyətləri özünü göstərir ki, bunların musiqişünaslıq mövqeyindən araşdırılması mühüm əhəmiyyət kəsb edir. Xüsusilə XX əsrin sonlarında dini mövzulu əsərlərin konsert səhnələrində ifa olunması üçün geniş imkanlar meydana gəlmişdir. Musiqişünaslıqda "Dini musiqi və bəstəkar yaradıcılığı" məsələsinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Dini musiqinin və bəstəkar yaradıcılığının qarşılıqlı təsiri nəticəsində dünya musiqisində bir sıra əbədi mövzular meydana gəlmiş və janrlar formalaşmışdır. Bu baxımdan, İlahi məhəbbətin, insanlığın, saf mənəviyyatın, ümumbəşəri kədər və hüzn hisslərinin ifadəsi kimi rekviyem, passion və s. kimi dini musiqi janrlarından istifadə olunmasını qeyd etməliyik.

Azərbaycan bəstəkarlarının yaradıcılığında həm Qərbdə yaranmış, əsasən Xristianlıqla bağlı dua mətnlərindən (məsələn, "Ave maria") və janrlardan (rekviyem, passion, misteriya və s.) istifadə olunması, həmçinin, Şərqdə yayılmış qədim dinlərin – Zərdüştiliklə bağlı mövzuların, təriqətlərin (dərvişlik, sufilik, mövlanəlik), İslam dininə xas olan dini oxuma və janrların (dua mətnləri, mərsiyə, qəsidə, şəbeh və s.) istifadə olunması nəticəsində bəstəkarların özünəməxsus musiqi üslubu formalaşmışdır. Şifahi ənənəli Azərbaycan musiqisində xalq mahnı və rəqsləri, aşıq havaları və muğamlarla yanaşı, dini musiqi janrları da inkişaf etmişdir. Azərbaycan bəstəkarlarının musiqi üslubunun formalaşmasına folklor, aşıq və muğam sənətilə yanaşı, dini oxumalar da böyük təsir göstərmişdir. Bəstəkarların dini musiqiyə müraciəti özünəməxsus musiqi ifadə vasitələri kompleksinə, janr və mövzu sisteminə müraciətlə bağlıdır ki, bu da yaranan bəstəkar əsərinin bütün parametrlərinə - kompozisiya, melodika, intonasiya, forma, ritmika, harmonik-polifonik üslub və s. təsir edir. Dini musiqiyə müraciət edərkən, bəstəkarın qarşısına qoyduğu yaradıcılıq məqsədləri də fərqli və özünəməxsusdur.

Hər bir bəstəkarın yaradıcılığında bu təsir fərdi cəhətlərlə bağlıdır. Bir tərəfdən, bu, musiqi təfəkkürünün dərin qatlarında kök salmış ənənəvi xüsusiyyətlərlə bağlı olub, melodik-intonasiya səviyyəsində özünü göstərir. Digər hallarda isə dünyada və cəmiyyətdə baş verən faciəvi hadisələrə bəstəkarların münasibətini ifadə edən vasitə kimi təzahür edir. Bütün hallarda bəstəkar yaradıcılığında dini musiqidən istifadə yollarının öyrənilməsi musiqişünasların qarşısında duran zəruri məsələlərdəndir. Dini musiqinin bəstəkar yaradıcılığına sirayət etməsi, demək olar ki, bütün sahələrdə - musiqili-teatr, vokal-instrumental, xor, simfonik və kamera instrumental musiqi sahələrində özünü müxtəllif cəhətlərdən göstərir. Musiqişünaslıq tədqiqatlarında dini musiqi – Azərbaycanın şifahi ənənəli xalq-professional musiqi kimi səciyyələndirilir ki, əsrlər boyu xalq arasından çıxmış peşəkar ağıçılar və ruhanilər, din xadimləri və cəmiyyətin dindar təbəqəsi tərəfindən inkişaf etdirilmiş, dini oxumaların müxtəlif növləri və tətbiqi sahələri meydana gəlmişdir. Dini musiqinin kök salmış ciddi qayda-qanunları, özünəməxsus forma və janrları, yaradıcılıq və ifaçılıq ənənələri formalaşmışdır ki, bu gün də ənənəvi olaraq, nəsildən-nəslə ötürülərək, davam etdirilir və yaşadılır.

Azərbaycanda, bütün müsəlman ölkələrində olduğu kimi, dini mərasimlər dini oxumalarla müşayiət olunur. Bu ənənə öz köklərinə görə İslama qədərki dövrlərlə bağlıdır. Məlumdur ki, hələ qədim dövrlərdən musiqi müxtəlif mərasimlərin (təqvim, toy, matəm və

s.) tərkib hissəsiolmuşdur. Müxtəlif məzmunlu mərasimlərin musiqisi özünəməxsus janr xüsusiyyətləri ilə fərqlənmişdir. İslam dinində musiqiyə münasibət birmənalı olmamışdır. Belə ki, dini dairələrdə musiqi məşğuliyyəti haram hesab olunurdu, lakin xalqın həyat və məişətində musiqinin geniş surətdə tətbiq olunduğunu, xalqındünyagörüşünün ifadəçisinə çevrildiyiniqeyd edə bilərik.Azərbaycanda bəstəkar yaradıcılığının formalaşmasının ilkin çağlarından xalq musiqisinin digər təbəqələri – folklor musiqisi, aşıq və muğam sənəti ilə yanaşı, dini musiqinin də təsiri olmuş və bu təsir müxtəlif aspektlərdə - janr, mövzu və musiqi xüsusiyyətləri ssəviyyəsində özünü göstərmişdir. Azərbaycan musiqisinin inkişaf mərhələlərində bəstəkar yaradıcılığının dini musiqi ilə əlaqəsi müxtəlif səpkidə olmuşdur. Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar və musiqişünas Üzeyir Hacıbəylinin yaradıcılığından başlayaraq, dini musiqinin bəstəkar əsərlərinə müxtəlif səviyyələrdə təsirini izləyirik.

XX əsrin əvvəllərində Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəyli Azərbaycan operasını yaradarkən, dini musiqiyə böyük önəm vermişdir. Ü.Hacıbəylinin "Leyli və Məcnun" (1908) operasında XVI əsrin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasından istifadə etmiş, operanın musiqi materialı kimi isə muğamlara, rəng və təsniflərə əsaslanmışdır. Bəstəkar Şərq və Qərb mədəniyyətlərinin iki ən yüksək inkişaflı janrlarını - muğamla operanı qovuşduraraq, Azərbaycan musiqi mədəniyyətində yeni opera növünün - muğam-operanın əsasını qoymuşdur. Bununla yanaşı, Azərbaycan operasının yaranmasının qaynaqlarından biri məhz dini musiqi olmuşdur. Bu cəhətə, ilk növbədə, Ü.Hacıbəyli özü diqqəti yönəldərək, Azərbaycan operasının yaranmasına dini "Şəbih" tamaşalarının təsirini açıqlamışdır. Burada şiə misteriyası olan "Şəbih" dini-matəm əhval-ruhiyyəsi öz əksini tapmışdır. Ü.Hacıbəyli, həmçinin, "Leyli və Məcnun" operasının musiqi materialında istifadə etdiyi melodiyalardan bir neçəsi xalq arasında geniş yayılmış mərsiyələrdən almışdır.

"Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsində Ü.Hacıbəyli yazırdı ki, Azərbaycan operası formasına görə Avropa operasına yaxındırsa, ifaçılıq tərzi "Şəbih"dən götürülmüşdür. Fərq ondadır ki, operalarda daha geniş və "Şəbih"dən daha artıq həcmdə muğam dəstgahları istifadə edilmiş, orkestr daxil edilmişdir, tamaşa da konkret səhnə forması – Avropa opera tamaşalarına yaxın forma alır (Hacıbəyli, 1985, S. 191). Bəstəkar bunu da qeyd etmişdir ki, "Şəbih" vokal, bəzi yerlərdə isə instrumental musiqi ilə müşayiət olunur. Beləliklə, Ü.Hacıbəyli "Şəbih"in ənənələrinin Azərbaycanda opera janrının inkişafına müsbət təsiri haqqında danışdıqda, aydın ifadə olunmuş mövqe tuturdu. O, tamamilə düzgün olaraq qeyd edirdi ki, bu hadisə təkcə Azərbaycan musiqisinə deyil, dünya musiqi tarixinə xas olan cəhətdir. O yazırdı: "Qədim xristian katoliklərin liturgiya dramlarında, yaxud misteriyalarında operanın başlıca ünsürlərinə təsadüf olunurdu, opera özü bunlardan törəmişdir" (Hacıbəyli, 1985 s. 167). Ü.Hacıbəyli bu haqda yazırdı: "Aşura günü "Qətl" mərasimi əsnasında Şəbeh çıxarmaq məşhur vaqiədir. Şebeh qərb əhlinin "oratoriya" dedikləri, bir növ dini tamaşadır ki, Kərbəla vəqəəsindən götürülmüş hadisələrin təşbeh (oxşarı) və təsvirini göstərir. 1907-ci ildən bəri Azərbaycan türkləri arasında milli operanın əmələ gəlməsinin əsas amillərindən birisi Şəbeh olduğu şübhəsizdir" (Hacıbəyli, 1985, s. 191).

Ü.Hacıbəylinin dini musiqinin quruluş-kompozisiya əsasına müraciət etməsi və müəyyən ifadə vasitəsi kimi istinadı ilə bağlı S.Seyidovanın müşahidələri maraqlıdır. Tədqiqatçı matəm oxumalarından Ü.Hacıbəylinin məhz xor səhnələrində istifadə etdiyini göstərmişdir. S.Seyidova yazır ki, "Musiqi mətninin mürəkkəbliyi, oynaqlığı, musiqi alətlərinin çoxsəsli ahəng yarada bilən məharətli müşayiəti, insanı vəcdə gətirən xüsusiyyətə

malik olub, dünyəvi hisslər aşıladığına görə, haram sayılıb qadağan edilir. Kollektiv (xor) ifa edilən oxumalar birlik, vahidlik rəmzi kimi ancaq unison üsulla əsaslandırılır. Bu da dini musiqinin monodiya əsasını təşkil edir" (Seyidova, 1999, s. 140).Musiqişünas Ə.Babayeva Şəbehlərlə muğam dəstgahların uyğunluqlarını müqayisəli şəkildə belə şərh etmişdir: "Dini mərasimlərdə də muğam kompozisiyasında olduğu kimi, musiqi materialının uyğunluğunu muğamın təsirli, obrazlı-emosional sferasına əsaslanmasında, iri həcmli formanın silsilə halında birləşməsində, dəqiq metroritmə əsaslanan musiqi nömrələrinin (dini mərasimdə bunu mərsiyələr yerinə yetirirsə, muğamda dəramət, təsnif, rəng öz öhdəsinə götürür) improvizasiyalı parçalarla (dini mərasimdə melodeklomasiya, əfrad; muğamda – şöbə) ardıcıllaşmasında, həmçinin, klassik şeir formasının (dini mərasimdə mərsiyə, qəsidə, nət; muğamda isə qəzəl) poetik ölçüsünə (əruz) əsaslanmasında izləmək olar" (Babayeva, 2015). Fikrimizcə, bu müqayisə hər iki janrın qarşılıqlı surətdə öyrənilməsinə imkan yaratmaqla, həmçinin, operalarında bu istiqamətdə araşdırılmasına yol açır.

Ü.Hacıbəylinin yaradıcılığında dini və bəstəkar musiqisi kimi iki inkişaf etmiş və müstəqil sistemin qovuşdurulmasını izləyirik. Bəstəkar dini musiqiyə məqsədyönlü olaraq müraciət etməmişdir. Dini musiqi ənənələri onun yaradıcılığına ixtiyarsız olaraq daxil olur. Sonradan bəstəkarın dini musiqidən istifadəsi dar yaradıcılıq istiqamətinin əlamətləri kimi yox, artıq universal şəkil alır. Bəstəkar dini musiqidən bir material kimi yox, xüsusi bədii sistem və həmin sistemin komponentləri kimi istifadə edir.XX əsrin əvvəllərində yaranmış ilk Azərbaycan operası "Leyli və Məcnun"da, həmçinin, ondan sonra meydana gəlmiş Ü.Hacıbəylinin, M.Maqomayevin, Z.Hacıbəyovun operalarındaayrı-ayrı dini musiqi nümunələrindən istifadəyə rast gəlirik. XX əsrin ortalarında sovet rejiminin (1920-ci ildən sonra, 1990-cı ilə kimi) hökm sürdüyü şəraitdə bəstəkar yaradıcılığında dini mövzulara müraciətçox az hallarda və sətiraltı mənadaişarə kimi öz əksini tapırdı.Bu baxımdan F.Əmirovun "Sevil" operasının Uvertüra-proloqunda xalqın həyatında dinin təsirini əks etdirmək üçün müəzzinin oxumasından istifadə etməsi diqqətəlayiqdir.

Bəstəkar yaradıcılığında dini musiqidən istifadə iki istiqamətdə özünü göstərir. Birincisi, bəstəkarlar əsərin proqramı ilə əlaqədar olaraq, dini musiqi nümunələrini emosional-psixoloji cəhətdən əsərin ideya-obraz xüsusiyyəti ilə əlaqələndirirlər. İkincisi, dini-matəm musiqisi nümunələrinin sitat şəklində əsərin musiqi materialına daxil olunması ilə bağlıdır. Bu iki istiqamət bir sıra bəstəkarların yaradıcılığında öz təzahürünü tapır. Bəstəkarların yaratdıqları dini məzmunlu əsərlər bir-birindən çox fərqlidir: müəlliflərin dəst-xəttindən tutmuş, əsərlərin məzmununa və janrına qədər, musiqi dilinin işlənilməsi xüsusiyyətlərinə qədər müxtəlifdir. Lakin bu əsərlərdə dini musiqidən istifadənin Azərbaycan bəstəkar yaradıcılığında kök salmış prinsipləri özünü göstərir. Dini musiqiyə müraciət olunması tendensiyası XX əsrin sonunda bəstəkar yaradıcılığında xüsusi vüsət almışdır. Bu da bəstəkarların, bir tərəfdən, cəmiyyətdə gedən ictimai-siyasi hadisələrin bilavasitə iştirakçısı olmasından, digər tərəfdən, baş verən hadisələrə münasibətini yaratdıqları əsərlərdə əks etdirmək meylindən irəli gəlir. Bəstəkar əsərlərində dini musiqidən istifadə bir tərəfdən, şəxsiyyətlə, fərdi təfəkkürlə, dünyagörüşü və yaradıcılıq təşəbbüsləri ilə bağlıdırsa, digər tərəfdən, tarixilik amili ilə, cəmiyyətdə və xalqın həyatında baş verən hadisələrə bəstəkarın münasibəti ilə bağlıdır. Bu baxımdan, xüsusilə, 1990-cı illərdə və sonrakı dövrdə - Qarabağ müharibəsi və 20 yanvar hadisələri, Azərbaycan xalqının müstəqillik tarixinin qanla yazılmış ən faciəvi səhifələrinin musiqi yaradıcılığında təcəssümü diqqəti cəlb edir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında dini musiqiyə müraciət əsasən iki cəhətlə bağlıdır.Birincisi, proqramlı adı dini mövzu və ya dini musiqi janrı ilə bağlı - Peyğəmbərlik,

Mövlana, Dərviş, Münacat, Mərsiyə, Qəsidə və s.:Firəngiz Əlizadənin “Dərviş” – xanəndə, solo-violonçel və ansambl üçün Septet, “Mərsiyə” - violonçel və simfonik orkestr üçün konsert, “Zikr” (Nəsiminin sözlərinə) - Avropa, Asiya və Cənubi Qafqaz xalqlarının musiqi alətlərindən ibarət “Alas” orkestri üçün, Fərəc Qarayevin instrumental ansambl üçün “Xütbə, muğam və surə”, Cəlal Abbasovun müxtəlif alətlər üçün “Münacat I”, “Münacat II”, “Münacat III”, Rəhilə Həsənovanın orqan üçün “Qəsidə” simfoniyası, Simli kvartet, tenor və bas üçün “Dərviş”, Simli, nəfəsli, vokal kvartetlər və piano üçün “Mərsiyə”, Ağadadaş Dadaşovun Cəlaləddin Rumiyə həsr olunmuş “Mevlana” – vokal-instrumental kompozisiyası (sözləri Y.Solmazındır), Yaşar Xəlilovun “Əshabi-Kəhf” baletini və s. əsərlərin adını çəkə bilərik.

İkincisi, dini mətnlətdən istifadə ilə bağlı əsərlər.Quran mətnlərindən istifadə ilə bağlı əsərlərin proqramlı adı dini musiqiyə aid olmayıb, yalnız əsərin məzmunu ilə əlaqədar olaraq, dini mətn - ərəb dilində dualar daxil olunur. Azər Rzayevin “Bakı-90”, Faiq Nağıyevin qarışıq a capella xoru üçün Konserti (Qara Qarayevin xatirəsinə, sözləri Xaqani Şirvaninindir) bu qəbildəndir.Bəstəkar yaradıcılığında İslam dini ilə bağlı mövzulardan istifadə olunmasına müxtəlif janrlı əsərlərdə rast gəlinir. Dini musiqi xüsusiyyətləri əsərin məzmunundan asılı olaraq, vokal, xor və instrumental əsərlərdə tətbiq edilir. Dini musiqinin tətbiqi bir tərəfdən, dua mətnlərinin tətbiqi, digər tərəfdən, intonasiya xüsusiyyətlərinin təcəssümü ilə bağlıdır. Azərbaycan bəstəkarlarının dini mövzuya müraciətinin bir cəhəti latın dua mətnlərindən, digər cəhəti isə kilsə musiqisinə aid janrlardan istifadə olunması ilə bağlıdır. Fərhad Bədəlbəylinin “İki qadının duası” (“Ave Maria” katolik himni əsasında), Azər Dadaşovun *a cappella* xoru üçün: “Ave Maria” (sözləri katolik himni), “Ey Tanrım”, “Alleluia” (sözləri katolik duası), “Kim Allahı sevər” (sözləri Məhəmməd Füzulinindir), “Şükürlər olsun sənə” (sözləri müəllifindir),; Sərdar Fərəcovun soprano, fleyta, violin, orqan və xor üçün “Psalm - 150”, Qalib Məmmədovun piano, səs və maqnitofon yazısında hind fleytası üçün “İki dua” (II versiya - piano prepare, marimbafon, klarnet-bas, klarnet in B, tar, balaban və zərb alətləri üçün), metso-soprano, bas və kamera orkestri üçün “Davudun psalmları”, A cappella xoru üçün 52 və 39 saylı Psalmlar və s.

Məsələn, İsmayıl Hacıyevin “Od gəlini” balet-misteriyası, "Zərdüşt", “Həyat və əbədiyyət”, “Dünyanın qızıl gülü” simfonik misteriyaları, Arif Mirzəyevin “Baxın xatirəsinə Orqan simfoniyası”, violin və orqan üçün “Kədər duaları” (Heydər Əliyevin xatirəsinə ithaf), kamera orkestri üçün “Nyu-York Passionları”, qiraətçi, xanəndə, kamança, xor və kamera orkestri üçün “Yanvar passionları” (və ya “Yanvar mərsiyələri” – İslam matəm messası, 1990-cı il 20 yanvar qurbanlarına həsr olunur), Almaniyadakı Yevangelist kilsələrində dini mərasimlər üçün nəzərdə tutulan orqan üçün pyes-improvizasiyalar silsiləsi və s. adını çəkə bilərik.Bəstəkar yaradıcılığında dini musiqi janrlarını daha sərbəst, ənənəvi mətndən kənarda təfsir olunduğunu qeyd etməliyik. Dini musiqi əsərlərinin əsas cəhəti olan kanonik mətnlərdən deyil, sərbəst şəkildə, poetik mətnlərdən istifadə özünü göstərir ki, bu da ənənəvi kilsə musiqi janrlarının təfsirinə dəyişiklik aşılayır. Bəstəkar üçün dini musiqi janrları, daha dünyəvi mahiyyət kəsb edir. Bəstəkarın hisslərini, eləcə də xalq matəmini təcəssüm etdirən bir vasitəyə çevrilir.Bəstəkarların dini musiqiyə müraciəti özünəməxsus musiqi ifadə vasitələri kompleksinə, janr və mövzu sisteminə müraciətlə bağlıdır ki, bu da yaranan bəstəkar əsərinin bütün parametrlərinə - kompozisiya, melodika, intonasiya, forma, ritmika, harmonik-polifonik üslub və s. təsir edir. Dini musiqiyə müraciət edərkən, bəstəkarın qarşısına qoyduğu yaradıcılıq məqsədləri də fərqli və özünəməxsusdur. Bütün bunlar musiqişünaslıqda “dini musiqi və bəstəkar yaradıcılığı” probleminin öyrənilməsinin

bilavasitə Şərq və Qərb musiqi ənənələrinin qarşılıqlı təsiri məsələlərinin tədqiqini istiqamətləndirir.

**KAYNAKLAR**

Hacıbəyli, Ü. (1985), Azərbaycan musiqi həyatına bir nəzər. Seçilmiş əsərləri. Bakı, “Yazıçı”. s.184-194.

Hacıbəyli, Ü. (1985), Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında. Seçilmiş əsərləri. Bakı, “Yazıçı”. s.165-169.

Seyidova, S.A. (1999), Üzeyir Hacıbəyov və dini musiqi. // “Musiqi dünyası” jurnalı, Bakı, N 1.

Babayeva, Ə. (2015), Muğam və İslam dini mərasim sisteminin terminoloji əlaqələri. “Muğam aləmi” Beynəlxalq Muğam Simpoziumunun materialları. Bakı, 2015. www.mugam.az/files/pdf/